

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 140 (23.051)

27 iyul 2018-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyasından irəli gələn vəzifələr müzakirə olunub



Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyində beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyasında qarşıya qoyulan vəzifələrin müzakirəsi olub. Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası ekologiya və təbii sərvətlər naziri Mayis Əliyev açaraq bildirib ki, cari ilin yaz əkin mövsümündə muxtar respublikanın şəhər, qəsəbə və kəndlərində, ümumilikdə, kənd təsərrüfatı əkinləri üçün yararsız olan 223 hektar sahədə meşəsalma, meşəbərpa işləri aparılıb, 15 hektar üzüm, 4 hektar badam bağı olmaqla, 90 hektar sahədə meyvə bağı, 133 hektar sahədə meşə massivi, yaşıllıq zolaqları salınıb. Yaşıllaşdırma tədbirlərində 222 mindən artıq meşə və meyvə tingləri, həmişəyaşıl ağaclar, bəzək və gül kolları əkilib. Əkin işlərinin aparılmasında istifadə edilən ting ehtiyatı muxtar respublikanın torpaq-iqlim xüsusiyyətlərinə uyğunlaşdırılmış meşə, meyvə, həmişəyaşıl tinglər, bəzək və gül kolları hesabına təmin edilib.

Qeyd olunub ki, yaz əkini mövsümündə, ümumilikdə, 155,1 hektar olmaqla, 37 hektar sahədə yaşıllıq zolaqları, meyvə bağları salınıb, 118,1 hektar sahədə ting və toxumla bərpa işləri görülüb. "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq 27 hektar sahədə yeni meyvə bağı, 10 hektar sahədə üzüm bağı salınıb, 45 min 700 müxtəlif meyvə tingi əkilib.

Vurğulanıb ki, 2018-ci ildə Naxçıvanın ölkəmizin Gənclər Paytaxtı seçilməsi ilə əlaqədar olaraq Naxçıvan şəhərində və ayrı-ayrı rayonların ərazisində gənclərin iştirakı ilə 7 hektar sahədə "Gənclər bağı" salınıb. Qoruq, milli park və yasaqlıq ərazilərində meşəsalma, meşəbərpa və yeni meyvə bağlarının salınması sahəsində də işlər görülüb.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

* * *

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsində keçirilmiş kollegiya iclasında çıxış edən komitə sədri Əsgər Əsgərov bildirib ki, hesabat dövründə komitə tərəfindən muxtar respublikada torpaq sahələrində su təminatının yaxşılaşdırılması, suvarılan torpaq sahələrinin genişləndirilməsi, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması, su itkisinin qarşısının alınması üçün mühüm tədbirlər həyata keçirilib, mütərəqqi suvarma metodlarının tətbiqinə üstünlük verilib.



Qeyd olunub ki, bu dövrdə muxtar respublika ərazisindəki 303,5 milyon kubmetr su tutumuna malik olan sututarlarına 195 milyon kubmetr su ehtiyatı toplanıb. Su istifadəçilərinə mexaniki üsulla və öz axımı ilə 148,1 milyon kubmetr suvarma suyu verilib, təkrar suvarma nəzərə alınmaqla 124 min 8 hektar torpaq sahəsi su ilə təmin olunub.

Bildirilib ki, Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 600 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilib, ümumilikdə, 2018-ci ilin birinci yarısında muxtar respublika ərazisində 35,7 kilometr yeni suvarma boru xətti çəkilib, 12,7 kilometr suvarma boru xətti əsaslı təmir olunub. 2018-ci ilin birinci yarısında muxtar respublika üzrə 161,9 kilometr beton və torpaq kanal, 197,5 kilometr ara arxlar lildən təmizlənib.

Vurğulanıb ki, yeni torpaq sahələrinin əkin dövriyyəsinə daxil edilməsi məqsədilə Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 39,5 hektar sahə, Sədərək rayonunda Dəhnə adlanan ərazidə 8 hektar sahə hamarlanaraq əkin üçün yararlı vəziyyətə gətirilib.

Bildirilib ki, 2018-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasında, ümumilikdə, 563,6 hektar sahədə qrunt sularının səviyyəsi aşağı salınaraq şoranlaşmanın qarşısı alınıb. Əhalinin içməli su təminatını yaxşılaşdırmaq üçün bu dövrdə 2,7 kilometr yeni içməli su xətti çəkilib, 33 kilometr içməli su xəttində və 3,8 kilometr kaptajda təmir-bərpa işləri aparılıb.

Qeyd olunub ki, 2018-ci ilin birinci yarısında komitənin balansında olan 101 ədəd nasos stansiyası və 828 ədəd subartezian quyusu istismar edilib. Bu dövrdə yaşıllıq ərazilərin suvarma suyu ilə təmin olunması üçün 8,6 kilometr yeni suvarma boru xətti çəkilib, 7,8 kilometr suvarma boru xəttində təmir-bərpa işləri yerinə yetirilib.

Komitə sədri bildirib ki, suvarma və içməli su təminatında qədim hidrotexniki qurğular olan kəhrizlərdən də geniş istifadə edilir. Belə ki, bu gün muxtar respublikanın şəhər və rayonlarında 332 kəhriz istismar olunmaqdadır. 2018-ci ilin ilk yarısında 8 kəhrizin təmir-bərpası bitib və təmir-bərpası aparılan 5 kəhrizdə işlər davam etdirilib.

Qeyd olunub ki, "Şəhər Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" layihəsi çərçivəsində 2018-ci ilin birinci yarısında Babək rayonunun Şəkərabad kəndində görülən işlər nəticəsində 5 min sakin fasiləsiz olaraq içməli su ilə təmin olunub. "Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində Şahbuz şəhər çirkab sutəmizləyici qurğuda 220 metr istinad divarı tikilib, hovuz ətrafına 180 metr drenaj xətti çəkilib. Şərur rayonunun Yengicə kəndində 29,2 kilometr su xətti çəkilib, 4 ədəd yanğın hidrantı quraşdırılıb, 860 su ev birləşməsi aparılıb. Ordubadda isə 6 su anbarının tikintisi başa çatdırılıb, 73,5 kilometr su, 72,1 kilometr kanalizasiya xətləri çəkilib, 3211 ədəd su ev birləşməsi, 3207 kanalizasiya bağlantısı aparılıb.

Sonra qarşıdakı dövr üçün vəzifələr diqqətə çatdırılıb, su ehtiyatlarından səmərəli istifadə ilə bağlı tapşırıqlar verilib.

* * *

Cari ilin birinci yarısının yekunları və qarşıda duran vəzifələrlə bağlı Naxçıvan Beynəlxalq Hava Limanında keçirilən iclası giriş sözü ilə direktor Mənsur Gülməmmədli açaraq məruzə edib. Bildirib ki, bu ilin birinci yarısında Naxçıvan Beynəlxalq Hava Limanında bir sıra layihələr reallaşdırılıb. Görülən tədbirlər hava nəqliyyatı sektorunun bütün sahələrini əhatə edib. Bəhs olunan dövrdə Beynəlxalq Mülki Aviasiya Təşkilatının, Mülki Nəqliyyat Assosiasiyasının tələbləri çərçivəsində elm və texnikanın ən son nailiyyətləri hava limanında tətbiq olunub.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində hava limanı üçün zəruri olan maşın-mexanizmlər, texniki vasitələr, materiallar alınıb gətirilib, limanda normal iş prosesi təmin edilib. Həmçinin kadr hazırlığı məsələsi də diqqətdə saxlanılıb, əməkdaşlar Milli Aviasiya Akademiyasının Pilotların Hazırlığı Mərkəzində təşkil olunan kurslarda iştirak ediblər.



Qeyd olunub ki, hesabat dövründə Aviasiya Təhlükəsizlik Xidmətinin maddi-texniki bazası möhkəmləndirilib, aerovağzal kompleksində əl yükləri və baqajın yoxlanması prosesi beynəlxalq norma və qaydalara uyğun təşkil edilib. Bundan başqa, mühafizə postlarında şəxsi heyətin ayıq-sayıqlığının artırılması istiqamətində profilaktik tədbirlər həyata keçirilib. Uçuşların təhlükəsizliyinin təmin edilməsi məqsədilə hava limanında təyyarə dayanacaqlarının örtüyünün xüsusi asfalt qatı ilə üzlənməsi prosesi artıq başa çatdırılıb. Hazırda aerovağzalətrafı yolların təmiri işləri aparılır.

Tədbir məruzə ətrafında çıxışlarla davam edib.

* * *

Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətində keçirilən müşavirəni xidmətin rəisi Vəli Novruzov açaraq məruzə ilə çıxış edib.



Qeyd olunub ki, heyvandarlığın inkişaf etdirilməsinin və məhsuldarlığının artırılmasının əsas yollarından biri də heyvanların baş sayının süni mayalanma yolu ilə artırılması və yüksək məhsuldar cinslərin əldə edilməsidir. Bu məqsədlə 2018-ci ilin 6 ayı ərzində heyvandarlıq təsərrüfatlarında 6077 baş inək, düyə və camış süni yolla mayalandırılıb və əvvəlki dövrdə mayalandırılmış inək, düyə və camışlardan 4911 baş sağlam bala alınıb. "Heyvandarlığın cins tərkibinin yaxşılaşdırılmasına dövlət dəstəyi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 avqust tarixli Sərəncamına əsasən əhalinin heyvandarlıq məhsulları ilə təminatının daha da yaxşılaşdırılması, yüksək məhsuldar genetik potensialı olan heyvanların baş sayının artırılması və bu sahəyə marağın gücləndirilməsi üçün bir sıra tədbirlər görülməkdədir. Süni mayalanma yolu ilə alınmış hər baş buzova görə heyvan sahiblərinə 100 manat həcmində subsidiya müəyyən edilməsi də bu sahənin inkişafına təkan verib.

Süni mayalanma tədbirlərinin həyata keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 fevral tarixli "Naxçıvan Muxtar Respublikasında heyvandarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamına uyğun olaraq Süni Mayalanma Mərkəzinin yaradılması istiqamətində işlər davam etdirilir. Bu da inək, düyə və camışların mayalandırılması üçün lazım olan yüksək məhsuldar cins törədicilərin toxumlarının yerli imkanlar hesabına əldə edilməsinə və digər ölkələrdən asılılığın aradan qaldırılmasına imkan yaradacaqdır.

Xidmət rəisi məlumat verib ki, muxtar respublikamızda heyvandarlıqla yanaşı, qida və müalicəvi baxımdan faydalı təsərrüfat sahəsi olan arıçılığın da inkişaf etdirilməsi diqqət mərkəzindədir. "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın icrasına uyğun olaraq təsərrüfat subyektlərinə 194 min 800 manat məbləğində kredit verilib, Dövlət Baytarlıq Xidməti tərəfindən 2335 vətəndaşa məxsus 54 min 437 arı ailəsi qeydiyyata alınaraq pasportlaşdırılıb.

Sonda məruzə ətrafında müzakirələr aparılıb.

* * *

***Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsində keçirilən tədbiri idarənin rəisi Mehman Məmmədov açaraq məruzə ilə çıxış edib.***

Bildirilib ki, muxtar respublikada dövlət arxivlərinin fəaliyyəti daim diqqət mərkəzində saxlanılır. Bu elmi-tədqiqat mərkəzləri üçün yaradılmış şəraitdən layiqincə istifadə etməyə çalışan arxiv işçiləri cari ilin birinci yarısında da qarşıya qoyulmuş vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışıblar.

Qeyd olunub ki, mühafizəxanalar üzrə qarışıq yerləşdirilmiş fond sənədlərinə yenidən baxılıb, materialların təyinatı üzrə yerləşdirilməsi ilə bağlı işlərin icrasına cari ilin aprel ayından başlanılıb. 2018-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi tərəfindən bərpaya ehtiyacı olan 3652 vərəqə, 83 ədəd fotoşəkil bərpa olunub. Kağız əsaslı 3837 saxlama vahidinin, 1350 fotoşəklin və 210 kinolentin mövcudluğu və fiziki vəziyyəti yoxlanılıb, yoxlamaya dair müvafiq aktlar tərtib edilərək, fond işlərinə əlavə edilib. Birinci yarımildə müxtəlif fondlar üzrə, ümumilikdə, 403 saxlama vahidindən ibarət 14 min 306 vərəqə



elektrondaşıyıcılara köçürülüb, 15 min 861 saxlama vahidindən ibarət siyahılar "Excel" proqramı vasitəsilə kompüterdə yazılıb. Müxtəlif fondlara aid 2765 saxlama vahidində ekspertiza işləri, 7997 saxlama vahidində təkmilləşdirmə və yenidən işləmə, 4075 saxlama vahidinin cildi üzərində təsvir işləri aparılıb. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin fondundan və "Şərq qapısı" qəzetindən istifadə edilməklə 163 tematik kart yazılıb.

Diqqətə çatdırılıb ki, 2018-ci ilin 6 ayı ərzində Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinin Ekspert Yoxlama Komissiyasında 6 protokol tərtib edilib ki, həmin protokollar da 2661 saxlama vahidindən ibarət daimi xüsusiyyətli 50, 13 min 597 saxlama vahidindən ibarət arayış xüsusiyyətli 64, 284 saxlama vahidindən ibarət müvəqqəti saxlanılan 8 və 2831 şəxsi işdən ibarət 14 siyahıya, 4748 qovluqdan ibarət 36 util aktına baxılaraq təsdiq edilib. Qəbul mənbəyi olan idarə, müəssisə və təşkilatlardan birinci yarımildə 5223 saxlama vahidi sənəd daimi mühafizə üçün Dövlət Arxivinə qəbul edilib, 4 təşkilata pasportlaşma işləri aparılıb, 13 təşkilata arxiv işinin təşkili ilə bağlı metodik köməklik edilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**

# Muxtar respublikada mal-qaranın sayı və heyvandarlıq məhsullarının istehsalı artmışdır

*Kənd təsərrüfatının əsas sahələrindən biri olan heyvandarlığın inkişafına muxtar respublikada xüsusi diqqət göstərilir. 90-cı illərin əvvəllərində tənəzzül vəziyyətində olan kənd təsərrüfatı ötən dövrdə mühüm inkişaf yolu keçmişdir. Belə ki, ölkəmizdə ilk dəfə olaraq aqrar islahatlara başlayan muxtar respublika bu sahədə əldə olunan nailiyyətlər göz önündə idi. Məhz bununla bağlı ümummilli lider Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi münasibətilə keçirilən tədbirdə demişdir:* ***"İndi deyəndə ki, ət, süd, yağ, pendir artıqlaması ilə istehsal olunur, başına qalıb, satmağa imkan yoxdur, çünki çıxarıb başqa yerdə satmaq mümkün deyildir, mən buna nə qədər sevinirəm. Nə qədər sevinirəm ki, o vaxt biz özəlləşdirməyə Azərbaycanın hər yerindən tez başladıq və Naxçıvan bu işlərə hamıdan qabaq nail oldu. Muxtar respublikanın o qara günləri qurtardı".*** *Artıq bu gün muxtar respublikada əhalinin tələbatı yerli imkanlar hesabına ödənilməklə bərabər, tələbatdan artıq istehsal edilmiş məhsulların ölkə xaricinə çıxarılması da təmin olunmuşdur.*



Əhalinin yerli heyvandarlıq məhsulları ilə təminatında və məhsul ixracında mühüm yer tutan heyvandarlığın inkişafı, dövlət dəstəyi nəticəsində süni mayalanma yolu ilə doğulmuş hər baş buzova görə 100 manat həcmində subsidiyanın müəyyən olunması yüksək məhsuldarlığı olan heyvanların baş sayının və heyvandarlıq məhsulları istehsalının artırılmasına şərait yaradılması ilə yanaşı, kənd təsərrüfatı məhsulları istehsalçılarının marağının bu sahəyə cəlb olunmasına səbəb olmuşdur.

Muxtar respublikada mal-qaranın baş sayının artırılması və cins tərkibinin yaxşılaşdırılması məqsədilə 1937 baş, o cümlədən 89 baş "Şvis", 535 baş "Simmental" və 1313 baş "Holştin-friz" cinsindən olan yüksək məhsuldar damazlıq boğaz düyələr gətirilərək lizinq yolu ilə sahibkarlara satılmışdır. Həmçinin mal-qaranın cins tərkibini yaxşılaşdırmaq məqsədilə muxtar respublikada 23 süni mayalandırma məntəqəsi fəaliyyət göstərir ki, bunun da nəticəsində 2018-ci ilin birinci yarısında muxtar respublikada ətlik və südlük toxum preparatları vasitəsilə heyvandarlıq təsərrüfatlarında 6077 baş inək, düyə və camış süni yolla mayalandırılmış, əvvəlki dövrdə mayalandırılmış inək, düyə və camışlardan 4911 baş sağlam bala alınmışdır.

Heyvandarlığın inkişafı istiqamətində təsərrüfat subyektlərinə cari ilin altı ayında bank və kredit təşkilatları tərəfindən 2 milyon 541 min 800 manat kredit verilmişdir ki, bu da bir il öncəki göstəricidən 3 dəfə çoxdur. Ümumilikdə, son on ildə bu sahəyə 72 milyon 453 min 500 manat kredit verilmişdir.

Yüksək və keyfiyyətli heyvandarlıq məhsullarının əldə edilməsi məqsədilə ötən dövr ərzində Naxçıvan şəhərində istehsal gücü saatda 3-3,5 ton və 10 ton olan iki qarışıq yem istehsalı sahəsi, Şərur rayonunda gündəlik istehsal gücü 10 ton olan qarışıq yem və Culfa rayonunda gündəlik istehsal gücü 500 kiloqram olan yem istehsalı sahələri yaradılmışdır. Bundan əlavə, Naxçıvan şəhərində gündəlik istehsal gücü 10 ton olan qarışıq yem istehsalı sahəsinin yaradılması davam etdirilir.

Heyvandarlığın inkişafında mühüm əhəmiyyət kəsb edən ixtisaslı kadrların hazırlanması, maddi-texniki bazanın gücləndirilməsi istiqamətində Naxçıvan Dövlət Universitetində Baytarlıq təbabəti ixtisası açılmış, müasir tədris ocağı istifadəyə verilmişdir. Bundan əlavə, Naxçıvan Dövlət



Texniki Kollecində müvafiq ixtisas üzrə yeni laboratoriya və fənn kabinələri yaradılmışdır. Həmçinin muxtar respublikada istifadəyə verilən qəsəbə və kənd mərkəzlərində baytar sahə məntəqələrinin fəaliyyətinin təşkili ümumi inkişafa mühüm töhfə olmuşdur.

Heyvandarlığın inkişafı üzrə həyata keçirilən dəstəkləyici tədbirlər muxtar respublikada iribuynuzlu və xırdabuynuzlu heyvanların baş sayının artımını təmin etmişdir. Belə ki, 1 iyul 2018-ci il tarixə muxtar respublikanın bütün təsərrüfat kateqoriyalarında iribuynuzluların sayı 122 min 87 baş, xırdabuynuzluların sayı 768 min 820 baş olmuşdur ki, bu da 2008-ci ilin müvafiq dövründəki göstəriciləri 18 və 22,4 faiz üstələmişdir.

*İribuynuzlu və xırdabuynuzlu heyvanların baş sayı*




İribuynuzlu və xırdabuynuzluların baş sayının və cins tərkibinin yaxşılaşdırılması, heyvandarlıq məhsullarının istehsalının artması nəticəsində 2018-ci ilin yanvar-iyun aylarında muxtar respublikada diri çəkidə 12 min 144,3 ton ət, 48 min 617,4 ton süd istehsal olunmuşdur ki, bu da 2008-ci ilin müvafiq dövrü ilə müqayisədə 37,2 və 18 faiz çoxdur.

2018-ci ilin yanvar-iyun aylarında 61 milyon 887 min 400 manatlıq heyvandarlıq məhsulları istehsal edilmişdir ki, bu da 2008-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,1 dəfə çoxdur.

Heyvandarlığın inkişafı istiqamətində cari ilin birinci yarısında 14 heyvandarlıq təsərrüfatı yaradılmış, 1 heyvandarlıq təsərrüfatının yaradılması, 2 heyvandarlıq təsərrüfatının genişləndirilməsi hazırda davam etdirilir.

Muxtar respublikada inşasına başlanan Süni Mayalanma Mərkəzi mal-qaranın cins tərkibinin yaxşılaşdırılması, heyvandarlıq təsərrüfatlarında süni yolla mayalandırılma işinin davamlılığı, mal-qaranın baş sayı və heyvandarlıq məhsulları istehsalının artımına müsbət təsir göstərəcəkdir. Mərkəz heyvandarlığın əsas sahələri olan iribuynuzlu və xırdabuynuzlu



heyvanların, quşların, arıların da cins tərkibinin yaxşılaşdırılmasına imkan yaradacaqdır.

Bütün bunlar onu göstərir ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu aqrar siyasətin nəticəsi olaraq heyvandarlıq sahəsində əldə olunan nailiyyətlər bundan sonra da davamlı olacaq.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Arıçılığın inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilir

***Muxtar respublikamızda təsərrüfatın çox mühüm və gəlirli sahəsi olan arıçılığın inkişafına böyük diqqət göstərilir. Bu sahənin inkişafı ilə əlaqədar dövlət maliyyə dəstəyinin həcmi xeyli artırılıb, balın emalı və qablaşdırılması ilə məşğul olan yeni istehsal sahələri istifadəyə verilib. Bu istiqamətdə həyata keçirilən digər tədbirlər, balın satışı üçün yaradılan şərait keyfiyyətli məhsul istehsalına və arı ailələrinin sayının artmasına səbəb olub. Son illər arıçılar balla yanaşı, qiymətli arıçılıq məhsulları olan vərəmum, çiçək tozcuğu, güləm, arı südü və digər məhsullar da istehsal edirlər. Xüsusi tibbi əhəmiyyətə malik olan belə qiymətli arıçılıq məhsullarına tələbat ilbəil çoxalır.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nda qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi istiqamətində görülən işlərin həcmi artmaqdadır. Bu sahə ilə məşğul olan sahibkarlara verilən güzəştli kreditlər də arıçılıq məhsullarının ixracına əlverişli şərait yaradır. Son illər ərzində Sahibkarlığa Kömək Fondu tərəfindən arıçılığın inkişafı məqsədilə 109 layihənin maliyyələşdirilməsinə 804 min 200 manat həcmində kreditlər verilib, balın emalı və qablaşdırılması ilə məşğul olan 5 istehsal müəssisəsi yaradılıb.

Bu ilin altı ayı ərzində Babək rayonunun Aşağı Buzqov kəndində Məhərrəm Eyvazov, Culfa rayonunun Milax kəndində Mahmud Nağıyev, Şahbuz rayonunun Kükü kəndində Əhəd Vəliyev, Sədərək rayonunun Heydərabad qəsəbəsində Zakir Zamanov tərəfindən arıçılıq təsərrüfatlarının yaradılmasına, həmçinin Ordubad rayonunun Əndəmic kəndində Orxan Əlizadə tərəfindən arıçılıq təsərrüfatı, arı yeşiyi və çərçivə (pətək) istehsalı sahəsinin yaradılması məqsədilə, ümumilikdə, 49 min 100 manat həcmində dövlət maliyyə dəstəyi göstərilib.



Arıçılıq məhsulu olan çiçək tozcuğunun tədarükü və qablaşdırılması, ana arı yetişdirmə təsərrüfatının və arı ailələri üçün qış yemlənməsində istifadə olunan vitaminli qida istehsalı sahələrinin yaradılması istiqamətində layihələr hazırlanıb, iqtisadi səmərəliliyi araşdırılıb və iri arıçılıq təsərrüfatları ilə layihələrin təqdimatı keçirilib. Bundan başqa, arıçılıq təsərrüfatlarında istifadə olunan ləvazimatların, arı yeşiyi, çərçivə, körük, geyim forması və əlcək istehsalı sahələrinin yaradılması istiqamətində sahibkarlar arasında maarifləndirmə tədbirləri aparılıb, dövlət maliyyə dəstəyi çərçivəsində yeni layihələr təklif edilib.

Arıçılığın daha da inkişaf etdirilməsi, bu sahə ilə məşğul olan sahibkarların işinin əlaqələndirilməsi üçün yaradılmış "Naxçıvan Muxtar Respublikası Arıçıları" İctimai Birliyinin maddi-texniki bazasının gücləndirilməsi sahəsində pilot layihənin tətbiqi və qrant vəsaitlərinin cəlb edilməsi məqsədilə iqtisadi-texniki əsaslandırmanın hazırlanması istiqamətində tədbirlər davam etdirilir.

Arıçılıq məhsullarının ixracı və ərzaq təhlükəsizliyi nöqteyi-nəzərindən qablaşdırma çox önəmli rola malikdir. Arıçılıq təsərrüfatlarının fəaliyyətinin stimullaşdırılması məqsədilə "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 2018-ci ilin ötən dövrü ərzində həmin təsərrüfatlardan 267 kiloqram bal məhsulu tədarük edilib.

Bu ilin mart ayında İran İslam Respublikasının Urmiya şəhərində keçirilmiş Naxçıvan Muxtar Respublikasında istehsal olunan məhsulların 2-ci Novruz şənliyi yarmarkasında "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən muxtar respublikada istehsal olunan təbii bal məhsullarının sərgi-satışı təşkil olunub.

İstehsal edilən arıçılıq məhsullarının keyfiyyəti də daim diqqət mərkəzində saxlanılır. Bu istiqamətdə cari ilin ötən dövrü ərzində "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən muxtar respublikada istehsal olunan bal məhsullarının 2 halda laboratoriya təhlilləri aparılıb, nümunələrin keyfiyyət göstəricilərinin qüvvədə olan normativ-texniki sənədlərin tələblərinə uyğun olduğu müəyyən edilib.

"2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı" yerli və ənənəvi arı cinslərinin yetişdirilməsinə, arı ailələrindən yüksək məhsul götürülməsinə, xəstəliklərə qarşı vaxtında mübarizə aparılmasına, arıçıların dövlət maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsinə, arıçılıq məhsullarının ixracına şərait yaradır.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Yeni quruculuq ünvanlarımız

Ordubad şəhərində quruculuq işləri sürətlə davam etdirilir. Belə ki, rayon mərkəzində Rabitə Evi üçün nəzərdə tutulmuş binanın inşası artıq tamamlanıb. Rayon İcra Hakimiyyətinin və şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyin, eləcə də 24 mənzilli yaşayış binasının tikintisi Ordubad şəhərinin gözəlliyinə əlavə çalarlar qatacaq.



Rayon mərkəzinin Heydər Əliyev prospektində Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Ordubad Rayon İdarəsinin inşaatçıları Rabitə Evinin tikinti işlərini başa çatdırıblar. Binanın ətrafında anbar və xidməti maşınlar üçün dayanacaq inşa olunub, xiyabanlar salınıb, gülkarlıqlar yaradılıb. Zirzəmi ilə birlikdə 4 mərtəbəli olan bu ünvanda nümunəvi rabitə xidməti göstərilməsi üçün hər bir şərait yaradılacaq.

Həmin prospektdəki daha bir ünvanda əsaslı yenidənqurma işləri aparılır. Ordubad Rayon İcra Hakimiyyətinin yerləşəcəyi bu binada qapı və pəncərələrin, çardağın, daxili arakəsmələrin yenilənməsi işləri həyata keçirilir. Binanın fasadının sıradan çıxmış suvaq örtüyü sökülərək yeni suvaq çəkilir.

Səməd Vurğun küçəsindəki Ordubad şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası da əsaslı surətdə yenidən qurulur. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişi ilə "Gəmiqaya Holdinq"in inşaatçılarının çalışdığı bu binada çardaq örtüyü yenilənib, pəncərələr yeniləri ilə əvəzlənib. Binanın ətrafına istinad divarları ucaldılıb, yöndəmsiz tikililər sökülüb. Yaxınlıqdakı məişət xidməti evinin ətrafı da səliqə-sahmana salınıb.

Ordubad şəhərinin "İstanbul" küçəsində "Cahan İnşaat" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən 24 mənzilli 5 mərtəbəli yaşayış binasında əsaslı təmir işləri yekunlaşmaq üzrədir. Binanın çardağı, pəncərə və qapıları yenilənib, fasada yeni suvaq üzlük çəkilib. Hazırda binanın ətrafında səliqə-sahman və abadlıq işləri aparılır.

**Abbas SEYİD**

# Döyüş Şöhrəti Muzeyi Naxçıvanın hərb tarixi ənənələrinə sadiqliyinin nümunəsidir

***Bu il Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100-cü ildönümü ərəfəsində Naxçıvanda yeni bir muzey istifadəyə verildi. Naxçıvan hərbi şəhərciyində açıq səma altında yaradılan Döyüş Şöhrəti Muzeyi profilinə görə muxtar respublikada yaradılmış ilk və unikal muzeylərdən biridir. Muzeylərlə bağlı mövzuya bir neçə dəfə müraciət etmişəm. Hər yazımda da qeyd etdiyim ortaq fikir ondan ibarət olub ki, bu mədəniyyət müəssisələri məxsus olduğu bölgənin təbliğatında vizit kartı rolunu oynayır. Profilinə görə elə muzeylər var ki, onları dünyanın istənilən ölkəsində yaratmaq mümkündür və belə mədəniyyət müəssisələrinə hər yerdə rast gəlmək olar. Ancaq elə muzeylər də var ki, onların yaradılması üçün ənənəvilik şərtdir. Məsələn, bu yazıda bəhs edəcəyimiz Döyüş Şöhrəti Muzeyi heç də geniş yayılmış kütləvi muzeylərdən deyil.***



Bu gün dünyada elə bir xalq tapmaq mümkün deyil ki, o xalqın tarixində hərblə, müharibə ilə bağlı müəyyən səhifələrə rast gəlinməsin. Lakin müharibələr o zaman qürurverici xatirələrlə anılır ki, xalqın mübarizə əzmini, döyüş ruhunu, Vətənə sədaqətini özündə əks etdirsin. Azərbaycan xalqının tarixi keçmişinə nəzər saldıqda görürük ki, ölkəmizin mühüm strateji mövqedə yerləşməsi, yaşayış üçün bütün imkanların əlçatan olması, iqlim xüsusiyyətləri və digər amillər Vətənimizi hər zaman xarici maraqların cəmləşdiyi bir məkana çevirib. Təbii ki, bu maraqlar ölkəmizin əhəmiyyətini göstərməklə yanaşı, zaman-zaman ona sahiblənmək iddialarını da ortaya qoyub. Tarixin bütün dövrlərində xalqımıza, ölkəmizə qarşı yönələn hücumlara hər dəfə layiqli cavab vermişik. Düşmənlərimizə qarşı bu mübarizələrdə saysız-hesabsız qəhrəmanlarımız öz igidlikləri ilə adsan qazanıb, şanlı hərb tariximizin unudulmaz səhifələrini yazıblar.

Qədim Naxçıvan diyarı da hər zaman öz igid, mübariz qəhrəmanları ilə tanınıb. Çar Rusiyası dövründən bu günümüzədək naxçıvanlı hərbçilər istər qədim diyarımızın müdafiə olunmasında, istərsə də digər cəbhələrdə öz şücaətləri ilə bu tarixi daha da zənginləşdiriblər. Bunları xatırlatmaqda məqsədimiz bu gün Naxçıvanda Döyüş Şöhrəti Muzeyinin yaradılmasının heç də təsadüfi olmadığını söyləməkdir. Çünki Naxçıvan zəngin hərb tarixi ənənələrinə malik bir diyardır. Uzaq tarix deyil, cəmi 25-30 il bundan əvvəl Naxçıvanı işğal etmək üçün bütün imkanlar səfərbər edilmişdi. Keçmiş sovet rejiminin ov tüfənglərini belə, müxtəlif



bəhanələrlə yığaraq əhalini düşmənin müxtəlif hərbi texnikaları ilə qarşı-qarşıya qoymuşdu. Yalnız Vətənə məhəbbət və ulu öndər Heydər Əliyevlə həmrəylik Naxçıvanı ağır bəlalardan xilas etdi. Nəticədə, muxtar respublika əhalisi xalqımızın ümummilli liderinin ətrafında sıx birləşərək bu qədim diyarın ərazi bütövlüyünün qorunub saxlanılmasına, bugünkü inkişafına yol açdı. Məhz həmin dövrdə dahi şəxsiyyət ordu quruculuğu istiqamətində Naxçıvanda qətiyyətli addımlar atdı. İqtisadi vəziyyətin çətin olduğu qədim diyarımızda həmin dövrdə ordu formalaşdırmağın, onun maddi-texniki bazasını təkmilləşdirməyin nə qədər mürəkkəb bir proses olduğunu bugünkü orta və yaşlı nəslin nümayəndələri yaxşı bilirlər...

Naxçıvan şəhərindəki hərbi şəhərciyin ərazisində yaradılmış Döyüş Şöhrəti Muzeyində həmin dövrdə muxtar respublikamızın müdafiəsində istifadə olunmuş onlarla hərbi texnika və qurğular var. Bu silah və qurğular blokadaya salınmış muxtar respublikanın ərazi bütövlüyünün qorunub saxlanılmasında böyük rol oynayıb. Burada nümayiş etdirilən hərbi texnikaların hər birinin yanında məlumat lövhələri qoyulub. Həmin lövhələrdə nümayiş etdirilən texnikaların istehsal ili, istifadə sahələri, texniki xüsusiyyətləri, döyüşlərdə iştirakı haqqında məlumatlar yerləşdirilib. Haubitsa, top və minaatanlar, tanklar, döyüş-nəqliyyat vertolyotu, hava hücumundan müdafiə üzrə döyüş maşınları, mühəndis istehkam xidmətində istifadə edilən texnikalar, habelə müxtəlif hərbi təyinatlı avtomobillərin eyni modellərindən hazırda da bir çox ölkələrin ordularında, eləcə də erməni hərbi birləşmələrində istifadə olunmaqdadır. Lakin ölkəmizin iqtisadi gücünün nəticəsində bu gün ordumuzun arsenalı müasir tələblərə yüksək səviyyədə cavab verən milli və dünyanın aparıcı silah sənayelərinin istehsalı olan hərbi texnikalarla təchiz olunub. Ötən il oktyabrın 18-də Naxçıvanda və bu il iyunun 26-da Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə Bakıda keçirilən təntənəli hərbi paradlar da bunu bir daha təsdiq edir. Düşmənlərimizin istifadə etdikləri hərbi texnikalar isə, sözün həqiqi mənasında, muzey eksponatına çevrilib. Nəzərə alaq ki, adətən, bir hərbi texnikanın model olaraq istismar müddəti 30-40 ilə qədər davam edir. Ancaq bu, hərbi sənayedə modifikasiya prosesinin dayanması anlamına gəlmir. Əksinə, hərbi sənaye bahalı investisiya sayıldığından, dünya ölkələrinin bir çoxu öz ordularının modernləşdirilməsinə bəzən 10-15 il vaxt sərf edirlər. Heç uzağa getməyək, bu gün MDB məkanındakı ali hərbi məktəblərdə hava hücumundan müdafiə ixtisası üzrə təhsil alan kursantlar, hələ də ilkin olaraq qoşunların hava hücumlarından müdafiəsində geniş istifadə olunan "Şilka", "Osa", "Kruq" kimi zenit-raket komplekslərini öyrənirlər. Hansı ki belə komplekslərdən ikisi bu gün Naxçıvandakı Döyüş Şöhrəti Muzeyində eksponata çevrilib. Deməli, bu muzey təkcə hərb tariximizin şöhrətini deyil, eyni zamanda ordumuzun müasir gücünü də göstərir.

Naxçıvan şəhərindəki Döyüş Şöhrəti Muzeyi maraqlı eksponatları ilə bu gün həm şəhər sakinlərinin, həm də muxtar respublikamıza gələn turistlərin diqqətini özünə cəlb edir. Diqqətçəkən cəhətlərdən biri də odur ki, bu muzey daha çox azyaşlıları maraqlandırır. Açıq səma altında 13 min hektar ərazidə yaradılmış muzeyi gəzərkən bunun bir daha şahidi oldum. Valideynləri ilə buradakı eksponatlara baxan bu uşaqlar üçün həqiqi döyüş texnikalarına yaxından baxmaq cizgi filmlərindən, kompüter oyunlarından daha maraqlı idi. Tanklara və vertolyota maraq göstərənlər isə daha çox idi. Bunu həmin texnikaların fonunda fotoşəkil çəkdirənlərin sayının çoxluğundan da görmək olardı. Bu həm də uşaqlarda ilkin vətənpərvərlik hisslərinin formalaşmasına şərait yaradır. Kim bilir, bəlkə də, bu uşaqlar arasında gələcəyin qəhrəman hərbçiləri yetişəcək. Hər halda bunu ürəyindən keçirənlər az deyildi. Hətta bir az yaxınlıqda valideynlərin təkidlərinə baxmayaraq, uşaqların buradan ayrılmaq istəməmələrinin də şahidi oldum, muzeylərimizin vətənpərvərliyə vizual təsirini öz gözlərimlə gördüm.

*Beləliklə, şəhərimizdə açıq səma altında Döyüş Şöhrəti Muzeyinin yaradılması Naxçıvanın şanlı hərb tarixi ənənələrinə malik olmasını, həm də müqayisəli şəkildə ordumuzun bugünkü gücünü göstərir. Uşaq və yeniyetmələrin muzeyə böyük marağı isə onların vətənpərvərlik tərbiyəsində müstəsna rol oynayır. Elə vətənpərvərliyin əsl marketinqi də budur!*

**Səbuhi HƏSƏNOV**

---

**Naxçıvan: İslam Mədəniyyətinin Paytaxtı – 2018**

# Qədim diyarımızın zəngin əlyazmalar xəzinəsi

***2005-ci ildən fəaliyyətə başlayan AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunda bu gün 400-dən çox qədim çap kitabı və əlyazmalar mühafizə olunur. Bunlar elmin müxtəlif sahələrinə – tarix, dilçilik, ədəbiyyatşünaslıq, nücum, fiqh, məntiq, riyaziyyat, tibb, coğrafiya, həmçinin bədii ədəbiyyata aid qiymətli materiallardır. Onların 80-dən çoxu əlyazma, qalanı isə daşbasma üsulu ilə və elektrik mətbəəsində çap olunan kitablardır. Buradakı "Qurani-Kərim"in incə nəstəliq xətti ilə yazılmış bəzi ayələri və məşhur dua nümunələri toplanan çox kiçik formatlı əlyazma, təxminən, 500 il bundan əvvələ aiddir.***

Fondda elmi, hüquqi, ictimai-siyasi, fəlsəfi məzmunlu əlyazmalar, həmçinin Nizami Gəncəvi, Məhəmməd Füzuli, Mirzə Fətəli Axundzadə, Abbasqulu ağa Bakıxanov, Sərraf Təbrizi, Mirzə Əli xan Ləli və digər Azərbaycan müəlliflərı ilə yanaşı, Firdovsi, Sədi, Hafiz, Namiq Kamal kimi fars və türk klassiklərinin əsərləri də mühafizə olunur.

Biz bu məqaləmizdə fondda qorunan farsdilli çap kitabları və əlyazmalarından bəhs edəcəyik. Burada fars dilində 50-dək əlyazma, 130-dan çox çap kitabı mövcuddur. Əlyazmaların əksəriyyəti nəstəliq xətti ilə yazılmışdır. Nəsx, süls xətti ilə yazılan əlyazmalar da vardır.

Fonda daxil olan farsdilli əlyazmaların çoxu Ordubad, Culfa, Şahbuz, Şərur, Sədərək və Kəngərli rayonlarının ərazilərindən toplanılmışdır. Tədqiqatlar zamanı əlyazmaların yazıldığı və çap olunduğu yerlər, onların ərsəyə gəlməsində xidməti olan müxtəlif sənətkarlar, mətbəə və karxanalar haqqında xeyli məlumatlar əldə edilmişdir. Aydın olmuşdur ki, onların müəllifi, katibi və çapına himayədarlıq edənlərin içərisində Əliqulu Mirzayi Naxçıvani ("Hidayətut-talibin" əsərinin müəllifi), Məhəmmədqasım Ordubadi (dini hökmlərə aid risalənin müəllifi), Hacı Molla Məhəmməd Naxçıvani ("Məzahirul-ənvar" əsərinin müəllifi), Əsgər Ordubadi (Sədi Şirazinin "Gülüstan", "Külliyyat", Mirzə Mehdi xan Astrabadinin "Tarixi-Nadiri", Axund Molla Abbasəlinin "Töhfətul-məcalis"), Məhəmməd Əklisi (Əbunəsr Fərahinin "Nisabus-sibyan" əsərinin katibi), Əli Əkbər vəledi-Məşədi Məhəmmədrza Naxçıvani kimi naxçıvanlılar da vardır.

Fondda mühafizə olunan Əbdülqasım Firdovsi, Nizami Gəncəvi, Sədi Şirazi, Hafiz Şirazi, Qaani, Mirzə Həbib Şirazi, Nazim, Qumri, Hüseyn Qulpayqani, Mirzə Məhəmməd Həsən əl-Hüseyn Zunuzinin şeirləri və poemaları, həmçinin "İsgəndərnamə", "Kəlilə və Dimnə", "Min bir gecə" kimi bədii əsərlər Şərq dünyasında öz dövrü üçün aktual mövzulara həsr olunan dəyərli sənət inciləridir. "Nicat ət-Mominin", "Cəlail-uyun", "Qanuni-Qüdsi", "Cənnətul xulud", "Tarixi-Nadiri", "İnşa", "Hidayətul-mutəvhidin", "Ənvarul-xəmsə", "Xəzan və bəhar" və digər əlyazmalarda isə Adəmin yaradılışı və sonuncu Peyğəmbərin dövrü, Həzrət Məhəmməd Peyğəmbərin zühuru və həyatı, "Qurani-Kərim"də işlədilən terminlərin lüğəti, Quran surələri, ayələri, hədis və məşhur duaların şərhi, müxtəlif dini şəxsiyyətlər və imamlarla bağlı rəvayətlər,



Sədi Şirazinin "Gülüstan" əsərindən bir səhifə. 1272 h.q. (1855) Əsgər Ordubadinin himayəsi ilə çap olunub



M.Füzuli "Leyli və Məcnun" poemasına illüstrasiya. 1274 h.q. (1860) Katibi: Hüseyn bəy Ordubadi



Nizami Gəncəvinin "İsgəndərnamə" poemasından bir səhifə

Həzrət Əlinin mədhi, inam, əxlaq və dini etiqadlar, fars dilinin qrammatikası, əməvilərə qarşı aparılan mübarizələr, İran şahlarının tarixi, məşhur şəxsiyyətlərin məktubları, Şərq əfsanə və rəvayətləri, Şərq təqvimi, bəzi şəriət hökmləri və adət-ənənələrin şərhi, dini lətifə və nəsihətlər, İslam tarixi və başqa mövzular öz əksini tapmışdır.

Farsdilli əlyazmaların bir qismi vaxtilə mollaxana və mədrəsələrdə tədris vəsaitləri kimi istifadə olunmuşdur. "Gülüstan", "Bustan" (Sədi Şirazi), "Əbvabul-cinan" (Məhəmməd Rəfiəddin Qəzvini), "Cameyi-Abbasi" (Bəhaəddin Məhəmməd Amili) belə əlyazmalardandır.

Fondda müxtəlif illərdə çap olunan "Gülüstan"ın 12, "Bustan"ın 2, "Əbvabul-cinan"ın 14, "Cameyi-Abbasi"nin və "Nisabus-sibyan"ın 7 müxtəlif nüsxəsi vardır. Bunun səbəbi, şübhəsiz ki, həmin əlyazmaların tədris vəsaiti kimi müntəzəm olaraq çap edilməsi və çox geniş ərazilərdə yayılmasıdır. Həmin dərsliklər vaxtilə gənc nəslin formalaşmasına layiqli töhfələrini vermişdir.

Əlyazmalar üzərində apardığımız araşdırmalar onlara məxsus olan bəzi səciyyəvi xüsusiyyətləri də müəyyənləşdirməyə imkan vermişdir. Aydın olmuşdur ki, bu əlyazmaların çoxu xüsusi filiqranlı kağızlarda yazılmış, bəzilərinin müxtəlif səhifələrinə ya müəlliflərin, yaxud da başqa şəxslərin möhürləri basılmışdır. Bütün bunların həmin əlyazmaların müəlliflərini, yazılma və çap olunma tarixlərini müəyyənləşdirmək üçün böyük əhəmiyyəti vardır. Bu istiqamətdə xüsusi araşdırmaların aparılmasına ehtiyac duyulur.

Bəzi əlyazmaların mətni qara, sərlövhələri isə qırmızı mürəkkəblə yazılmışdır. Fondda müxtəlif səhifələrində həndəsi fiqurlar şəklində yazılar olan materiallara da rast gəlmək olur. Onların az bir qismi rəngli və rəngsiz ornament və miniatürlərlə bəzədilmişdir. Dini mövzulu əlyazmaların heç birində miniatür yoxdur. Bunlara ən çox fonddakı süjetli əsərlərin əlyazmalarında rast gəlirik. "Müseyibnamə", "Kəlilə və Dimnə", "İsgəndərnamə", "Külliyyat", "Şahnamə" əsərlərinin əlyazmalarını bəzəyən miniatürlər buna misal ola bilər. Ustalıqla işlənən bu miniatür-illüstrasiyalar oxuculara estetik zövq aşılamaqla yanaşı, əsərlərdə bədii-estetik idealın tamamlanmasi üçün də mühüm əhəmiyyət kəsb edir.

Əlyazmalara ornamentlərin vurulmasında ənənəvi elementlərdən istifadə olunmuşdur. Ornamentlərdə bitki, heyvan, quş və həndəsi təsvirlər, abstrakt rəsmlər daha çox diqqəti cəlb edir. Ornamentlər bir tərəfdən tərtibçi-rəssamların yüksək sənətkarlıq qabiliyyətlərini nümayiş etdirirsə, digər tərəfdən, əlyazmalara xüsusi gözəllik verir.

Fondda elə əlyazmalar da vardır ki, onların haşiyələrinə, yaxud ilk və son vərəqlərinə mətnə aid izahlar, Azərbaycan və fars dillərində kiçik şeir parçaları, bəzi şəxslərin təvəllüd, vəfat tarixləri və digər qeydlər yazılmışdır. Bu qeydlər tarixçi, ədəbiyyatşünas və dilçi mütəxəssislər üçün faydalı ola bilər.

*Fondun əməkdaşları tərəfindən hazırlanan farsdilli əlyazmaların kataloqu bu il oxucuların ixtiyarına veriləcəkdir. Burada mühafizə olunan farsdilli əlyazma kitabları İslam ədəbiyyatı və mədəniyyətinin əhəmiyyətli nümunələrindəndir. Bu mənəvi xəzinənin Azərbaycançılıq ideologiyası mövqeyindən tədqiqi ədəbiyyatşünaslıq, tarixşünaslıq və mətnşünaslıq elmimizin qarşısında duran mühüm vəzifələrdən biridir.*

**Fərman XƏLİLOV**
***AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunun direktoru, filologiya üzrə elmlər doktoru***

## Bir filmin tarixçəsi

***Bu il Azərbaycan kinosunun 120 illiyi qeyd olunur. 45 il bundan əvvəl ilk dəfə ekrana çıxan "Nəsimi" tarixi-bioqrafik filmi də Azərbaycan kino salnaməsində özünəməxsus yer tutur. Filmin Naxçıvan çəkilişləri maraqlı məqamları ilə yadda qalıb. Ssenari müəllifi Xalq yazıçısı İsa Hüseynov, rejissoru Həsən Seyidbəyli olan səhnə əsərinin çəkilişlərinin həm də həmin dövrdə hürufizmin yayıldığı qədim Naxçıvanda aparılması ona yeni çalarlar qatıb.***



Filmin yaradıcıları Suraxanı "Ataşgahı"nda, Şirvanşahlar Sarayında, karvansarada bəzi çəkilişlər apardıqdan sonra 1973-cü ilin avqust ayında Naxçıvana gəliblər. Çəkiliş meydançası kimi muxtar respublikanın Culfa rayonunun ərazisində yerləşən Əlincə qalası və Əlincəçayın vadisi boyu Xanəgah kəndinə yaxın məkanlar seçilib. Təbii ki, bu ərazi tarixi baxımdan diqqəti cəlb etməklə filmə uyğun bir məkan idi. Ssenaridə kütləvi səhnələr olduğuna görə, bura yerli sakinlərin də cəlb edilməsi qərara alınmış, çəkilişlərdə onların da fəal iştirakı kütləvi səhnələrin daha canlı alınmasına şərait yaradıb.

***Əlincəqala, Xanəgah, Şeyx Nəiminin məzarı...***

Naxçıvanda filmin ilk çəkilişləri Əlincəqalanın ətrafında aparılıb. Azərbaycan xalqının mübarizlik və vətənpərvərlik əzmini toplu halda nümayiş etdirən tarixi qalalarımızdan biri olan Əlincəqala bu gün ən yüksək səviyyədə bərpa olunub. Qala I-VI əsrlərdən başlayaraq müdafiə istehkamı və yaşayış yeri kimi istifadə olunub, 14 il Əmir Teymurun qoşunlarının hücumlarına müqavimət göstərib. Naxçıvanın Azərbaycan Atabəylər dövlətinin paytaxtı olduğu dövrdə Əlincəqalanın iqtisadi və siyasi mövqeyi önəmli dərəcədə artıb. Əlincəqalanın tarixi qaynaqlar əsas götürülərək bərpa edilməsi xalqımızın çoxəsrlik tarixi-mədəni irsinin gələcək nəsillərə çatdırılması və tanıdılması baxımından mühüm əhəmiyyətə malikdir. Burada "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyinin yaradılması da xüsusi məna daşıyır. Əlincəqalada məskunlaşmış insanların yaşayışını və döyüş sənətini özündə əks etdirən maddi-mədəniyyət nümunələrinin muzeydə nümayiş olunması qədim qala sakinlərinin həyatı və qəhrəmanlıq tarixi haqqında dolğun təsəvvür yaradır.

"Nəsimi" filminin çəkilişlərinin aparıldığı Xanəgah kəndi də özünün tarixiliyi ilə seçilir. Bəzi alimlərimiz bu adın mənbələrdə Xangah, Xanəgah, sonralar isə Xanağa şəklində işlənildiyini qeyd edirlər. "Xanəgah" ev mənası bildirən "xanə" sözünə "gah" şəkilçisinin artırılması yolu ilə əmələ gəlib. Kəndin "Xanəgah" adlandırılması hürufilik təriqətinin adı ilə bağlıdır. Böyük mütəfəkkir və şair Şeyx Fəzlullah Nəiminin də burada dəfn olunması "Xanəgah" sözünün hürufiliklə bağlı olduğunu təsdiqləyir. "Xanəgah" təriqət başçıları dəfn olunan, onlar üçün tikilən binalara, müqəddəs ocaqlara deyilir. Ona görə də tarixçi-alim Məşədixanım Nemətova yazır ki, kənddə ziyarətgah olduğuna görə bura "Xanəgah" adlanıb və kəndin əsasının qoyulması XIII əsrdən əvvəllərə aiddir.

Mərhum dilçi-alim Adil Bağırov isə yazır ki, el arasında kəndin "Şıx", "Şeyx piri", yaxud "Şeyx Xorasan" adlandırılması da Nəiminin adı ilə bağlıdır. Deyilənə görə, Nəiminin tərəfdarları sağlığında ona Şeyx Xorasan ("nur saçan Günəş", "Günəş bəxş edən") deyə müraciət edirmişlər. Gəlinən qənaət odur ki, "Xanəgah" sözü "bir şeyx və ya mürşidin rəyasəti altında olan dərvişlərin yaşadıqları və ibadət etdikləri yer, təkyə" mənasındadır. Deməli, sufi qələndərləri buranı məbədgaha çevirib ibadətlə məşğul olduqlarına görə kəndə "Xanəgah – Xaniqah" adı verilib və canlı danışıq dilində bu ad "Xanağa" şəklinə düşüb. Son illər kəndin adının "Xanəgah" variantı rəsmiləşdirilib.

Filmin çəkildiyi yerlərlə tanışlıq zamanı bir daha şahidi olduq ki, Naxçıvanda tarixi-mədəni irsimizə qayğı ilə yanaşılır, əcdadlarımızın miras qoyub getdiyi mədəni sərvətlərimiz gələcək nəsillər üçün qorunub saxlanılır. Şeyx Fəzlullah Nəiminin dəfn olunduğu Xanəgah Abidə Kompleksinin bərpası da bu sahədə görülən işlərin davamıdır. Naxçıvan memarlıq məktəbinin daha bir nümunəsi olan abidə XII-XV əsrlərə aid edilir. Arxiv materiallarında Xanəgahın XVIII əsrdə də fəaliyyət göstərdiyi qeyd olunur. Abidənin giriş baştağında Mömünə xatın türbəsinin elementlərindən istifadə olunub. Fəzlullah Nəimi 1394-cü ildə Əlincədə qətlə yetirildikdən sonra müridləri onun cənazəsini burada dəfn ediblər. Xanəgah uzun müddət yaşayış, ibadət və zikr yeri olub, tarixin müxtəlif dövrlərində isə həm də elm, təhsil və mədəniyyət mərkəzi kimi fəaliyyətini davam etdirib.

***"Qanlı kadrlar"ın çəkildiyi ərazi***

"Əlincəqala" Tarix-Mədəniyyət Muzeyinin direktoru Kamal Gülmalıyev ilə söhbətimiz zamanı qeyd edir ki, Xanəgah kəndinin ərazisində çəkilən səhnə ilə Əlincəqalanın ətrafındakı səhnələr filmdə birləşdirilib. Məsələn, filmdə ordunun hücumu zamanı Əlincəqalaya doğru qaçan insanlar səhnəsi qalanın yanında deyil, kəndin ərazisindəki "Sarı qayalar" deyilən yerdə və onların arxasındakı ərazilərdə çəkilib. Şeyx Fəzlullah Nəiminin öldürülməsi səhnəsi isə Xanəgah kəndi ərazisindən dağa doğru uzanan düzənlikdə lentə alınıb.

Filmdə Teymurləngin oğlu Miranşahla qarşılaşdığı səhnələr də tamaşaçılar tərəfindən maraqla izlənilir. Miranşahın Teymurdan aman diləməsi, Nəsimi ilə Teymur arasındakı məşhur dialoq səhnəsi də Xanəgah kəndinin ərazisində çəkilib. Həmin kadrlarda kənddən görünən əzəmətli Əlincə qalası diqqəti cəlb edir.

Çəkilişlərdə epizodik rolda çıxış edən Xanəgah kənd sakini İsmayıl Niftəliyev maraqlı bir xatirəsini bizimlə bölüşərək deyir ki, Şeyx Nəiminin ölüm səhnəsinin çəkilişləri zamanı böyük sənətkar İsmayıl Osmanlının qollarından və ayaqlarından iplə atlara bağlanması ətrafda onu izləyən yerli sakinləri həyəcanlandırıb. Bəziləri isə elə biliblər ki, həqiqətən də, atlar hərəkətə gətiriləcək və bədbəxt hadisə baş verəcək. Lakin sonradan Xanəgah kənd sakini Şəmsəddin Əliyevə aid heyvanın kəsilərək onun bir hissəsinin həmin atların ipinə bağlanaraq çəkilişlərin aparılması insanları sakitləşdirib.

Onu da deyək ki, "Nəsimi" yeganə tarixi filmdir ki, orada dekorasiya yoxdur. Məsələn, "Babək", "Nizami", "Dədə Qorqud"da var, amma "Nəsimi" filmi bütünlüklə naturada çəkilib, pavilyon çəkilişləri olmayıb.

***Filmin çəkilişləri həmin dövrdəki Naxçıvan mətbuatında***

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi Əli Rzayev həmin illərdə Naxçıvan mətbuatında dərc olunan məqalələri xatırladaraq deyir: "Vaxtilə "Şərq qapısı" qəzetində şöbə müdiri işləyən atam, Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi Hüseyn Razinin qəzetin 1973-cü il 11 avqust tarixli sayında kinorejissor Həsən Seyidbəyli ilə müsahibəsi dərc olunmuşdu. "Nəsimi Əlincə qalasında" sərlövhəli müsahibədə filmin çəkilişləri haqqında söhbət gedir. Yazıda Əlincə qalasında "Nəsimi" yaxud "Həqq məndədir" bədii filminin çəkilişlərinin aparıldığı qeyd olunub. Həsən Seyidbəyli yaradıcı kollektivin işi haqqında məlumat verərək bildirib ki, mövsümə görə filmin çəkilişləri üçün bir qədər gecikmişik. Buna baxmayaraq, çəkilişləri noyabr ayında başa çatdıra biləcəyik. Rejissor deyib: "Teymurləngin işğalçı qoşunları buraya hücum edib, qalanı 14 il mühasirədə saxlayıb. Biz Əlincə qalasında və onun ətrafında gedən döyüş səhnələrini, Miranşahın aqibəti ilə bağlı olan epizodları, Nəiminin öldürülməsini, Nəsiminin öz müəllimi və sevgilisi ilə görüşlərini, habelə başqa səhnələri çəkirik". Yazıda o da qeyd olunur ki, Əlincəçayın sahilləri boyunca düzülmüş çadırların və alaçıqların fonunda müxtəlif səhnələr artıq çəkilib".

Əli Rzayev onu da qeyd edir ki, "Nəsimi" filminin çəkilişi ilə bağlı "Şərq qapısı" qəzetinin 19 avqust 1973-cü il tarixli nömrəsində 6 şəkillə birlikdə növbəti məqalə dərc olunub. Eyni zamanda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə böyük şairin 600 illik yubileyinin ölkəmizdə təntənəli şəkildə qeyd olunması da "Şərq qapısı"nda geniş işıqlandırılıb. Qəzetin bütöv bir nömrəsi böyük mütəfəkkir şairə həsr olunub, yubiley tədbiri haqqında mətbu nəşrin 14 sentyabr 1973-cü il tarixli nömrəsində geniş məlumat verilib. Bakıda keçirilən yubiley tədbiri "Şairin əzəməti və şöhrəti" adlandırılıb.

***Böyük uğur yeni-yeni uğurlara yol açıb***

Film 1974-cü ildə ekranlara çıxıb və həmin il VII Ümumittifaq Kino Festivalında tarixi mövzuda "Ən yaxşı film"ə görə mükafata layiq görülüb. "Ən yaxşı kişi rolu" ifasına görə dəyərli aktyorumuz Rasim Balayev mükafat alıb.

"Nəsimi" filmi Azərbaycan kinosunun tarixi uğuru hesab edilir. Sonrakı illərdə də uğurlarımız davam edib. 1979-cu ildə ekranlara çıxan "Babək" filminin də yarıdan çoxu qədim Naxçıvan torpağında çəkilib.

**Rauf KƏNGƏRLİ**

---

Ordubad Rayon Mədəniyyət Evində Kazım Ziya adına Rayon Xalq Teatrının görkəmli yazıçı və dramaturq Əbdürrəhim bəy Haqverdiyevin "Yeyərsən qaz ətini, görərsən ləzzətini" komediyası əsasında hazırladığı tamaşanın premyerası olub.

## Yeni tamaşanın premyerası olub



Görkəmli dramaturqun ilk əsərlərindən olan komediya bir tacirin avamlığının və dözülməz ailə-məişət münasibətlərinin, ailədə fəlakətə səbəb olan qadınların şərəf və hüquqlarını tapdalayan çoxarvadlılıq məsələsinin tənqidinə həsr edilib.

Xalq teatrının aktyorları Davud Məmmədov, Nağı Əlisoy, Oruc Əliyev, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Günəş Ağayeva, Emin Yusifli, Zəhra Mirzəyeva, Süqarə Mirzəlinin yaratdığı rollar maraqla qarşılanıb.

Tamaşanın rejissoru Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Günəş Ağayeva, musiqi tərtibatçısı Qasım Rəsulov, rəssamı Hikmət Əliyevdir.

Tamaşadan sonra kollektivlə görüşən Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova və Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov onları yeni tamaşa münasibətilə təbrik edərək yaradıcılıq uğurları arzulayıblar.

**Əli RZAYEV**

---

## Elmi-praktik konfrans

Dünən Naxçıvan Muxtar Respublika Xəstəxanasında Beynəlxalq Hepatitlə Mübarizə Gününə həsr olunmuş elmi-praktik konfrans keçirilib. Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinin baş həkimi Xeyrənsə Babayeva çıxış edərək bildirib ki, Ümumdünya Səhiyyə Assambleyasının 2010-cu il tarixli qərarına əsasən iyulun 28-i bütün dünyada Beynəlxalq Hepatitlə Mübarizə Günü kimi qeyd olunur. Bu, hepatit barədə daha geniş məlumatlandırma işinə və bütün dünya ölkələrində yoluxmaya qarşı profilaktik tədbirlərin gücləndirilməsinə xidmət edir.

Qeyd olunub ki, ötən əsrin sonlarından yayılmış hepatit virusları kəskin xroniki xəstəliklər törədərək insanların sağlamlığında ciddi pozuntular yaradır. Hepatitə yoluxmuş insanların çox böyük əksəriyyəti bundan xəbərsiz olur, diaqnozu təyin edilmir və müalicəsi aparılmır. Yalnız hepatitin müxtəlif formaları, onların qarşısının alınması və müalicəsi yolları barədə maarifləndirməni genişləndirməklə insan həyatını xilas etmək olar.

Mərkəzin həkimləri Nəzirə Cəmşidli "Hepatit B xəstəliyinin etiopatogenezi, yoluxma yolları və klinikası", Münəvvər Ələsgərli "Hepatit C xəstəliyinin etiopatogenezi, yoluxma yolları və klinikası", Əminə Seyidzadə "Hepatit B və C xəstəliklərinin diaqnostikası və müalicəsi" mövzularında çıxış ediblər.

Çıxışlar videosüjet, diaqram, cədvəl və slaydlarla müşayiət olunub, müzakirələr aparılıb, suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

---

## II və III ixtisas qrupları üzrə qəbul imtahanı keçirilib

***Dövlət İmtahan Mərkəzi iyulun 26-da 2018-2019-cu tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə II və III ixtisas qrupları üzrə qəbul imtahanı keçirib.***

İmtahan respublikanın 11 şəhərində – Bakı, Naxçıvan, Gəncə, Sumqayıt, Mingəçevir, Şəki, Bərdə, Göyçay, Şirvan, Lənkəran və Xaçmazda, ümumilikdə, 61 binada aparılıb. İmtahanların idarə olunmasına 217 imtahan rəhbəri və ümumtəhsil müəssisələrindən 2585 nəzarətçi-müəllim cəlb olunub.

Məlumat üçün bildirək ki, Naxçıvan şəhərində imtahanlar 7, 14 nömrəli və Heydər Əliyev adına tam orta məktəblərdə keçirilib. İmtahana 153 nəzarətçi, 12 imtahan rəhbəri cəlb edilib, bir gün əvvəl onlar üçün seminar-treninqlər təşkil edilib. Ümumilikdə, 1615 abituriyent imtahan verib.

İmtahan bütün binalarda eyni vaxtda – saat $11^{00}$-da başlanıb və 3 saat davam edib. İmtahan başa çatdıqdan sonra müstəqil ekspertlər tərəfindən test tapşırıqlarının ekspertizası aparılıb. Həmin gün "Space" telekanalında canlı yayımlanan "Abituriyent" verilişində Dövlət İmtahan Mərkəzinin məsul əməkdaşları və ekspertlər tərəfindən sualların düzgün cavabları və test tapşırıqları ilə bağlı geniş izahat verilib. Sualların düzgün cavabları Dövlət İmtahan Mərkəzinin internet saytında və "Facebook" səhifəsində yerləşdirilib.

Abituriyentlərin cavab kartlarının emalı başa çatdıqdan sonra nəticələr və hər bir abituriyentin cavab kartının qrafik təsviri imtahandan 3-4 gün sonra mərkəzin rəsmi internet saytında *(www.dim.gov.az)* yerləşdiriləcəkdir.

**Güntac ŞAHMƏMMƏDLİ**


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 537